Abdurrazzaq bin AbdulMuhsin əl-Bədr

# Xeyrə necə açar ola bilərsən?



NİCAT HƏŞİMOV

# “XEYRƏ NECƏ AÇAR OLA BİLƏRSƏN?”

Müəllif:
**Abdurrazzaq bin AbdulMuhsin əl-Bədr**

**Tərcümə edən:**
Nicat Həşimov

**Redaktə edən:**
Xumar Ərşadlı
**İxtisas redaktoru:**
Qabil Şükürov

© KİTABIN BÜTÜN HÜQUQLARI QORUNUR

***www.tovhid.info***

# ÖN SÖZ

إنّ الحمدَ للهِ نَحمَدُهُ، وَنَستَعِينُهُ، وَنَستَغفِرُهُ، وَنَعُوذُ بِاللهِ مِن شُرُورِ أَنفُسِنَا وَمِن سَيِّئَاتِ أَعمَالِنَا... مَن يَهدِهُ اللهُ فَلاَ مُضِلّ لَهُ، وَمَن يُضلِل فَلاَ هَادِيَ لَهُ، وَأَشهَدُ أَن لاَ إِلَهَ إِلاَّ الله وَحدَهُ لاَ شَرِيكَ لَهُ، وَأَشهَدُ أَنّ مُحَمَّداً عَبدُهُ وَرَسولُهُ صَلَّى اللهُ عَلَيْهِ وَعَلَى آلِهِ وَأَصْحَابِهِ، وَمَنْ تَبِعَهُمْ بِإِحْسَانٍ وَسَلَّمَ تَسْلِيماً.

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, yalnız Onu köməyə çağırır, Ondan bağışlanma diləyir və Ona tövbə edirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün də yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, o kəs doğru yolda olar, kimi də azdırarsa, o kimsəni doğru yola yönəldən tapılmaz.

Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd (ona Allahın salavatı və salamı olsun) Onun qulu və Elçisidir.

İbn Macə (Allah ona rəhmət etsin) özünün “Sünnə” kitabında, İbn əbi Asim “əs-Sünnə” kitabında və başqaları Ənəs bin Malikdən (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edirlər: *“İnsanlardan elələri var ki, xeyrə açar, şərə qıfıldırlar və onlardan elələri də var ki, şərə açar, xeyrə qıfıldırlar. Xoş olsun o kimsəyə ki, Allah xeyrə açarı onun əli ilə edib və vay olsun o kimsəyə ki, Allah şərə açarı onun əli ilə edib”*[1].

1 İbn Macə “Sünən” 237-ci, İbn əbi Asim “əs-Sünnə” kitabında 297-ci, “Müsnəd ət-Tayalisi” 2082-ci, “Şuab əl-İmən əl-Beyhəqi” 697-ci hədislər. Hədis həsəndir. Bax: “Silsilə əs-Səhihə” 1332-ci hədis.

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) sünnəsində bu əzəmətli hədisin mənasını gücləndirən və sabit edən bənzər hədislər çoxdur. Bu hədislərə misal olaraq imam ət-Tirmizinin (Allah ona rəhmət etsin) "Sünən" kitabında Əbu Hureyradan (Allah ondan razı olsun) rəvavət etdiyi hədisdə o, (Allah ondan razı olsun) belə deyir: "Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) bir neçə oturmuş adamın yanından keçərkən onlara belə dedi: *"Sizə sizin ən xeyrlinizin və ən şərlinizin kim olduğunu xəbər verimmi?"*

Əbu Hureyra (Allah ondan razı olsun): *"Onlar susdular"* - dedi. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) üç dəfə bu sözləti təkrar etdi.

Onlar: *"Bəli, ey Allahın Elçisi! Bizdən kimin ən xeyrli və ən şərli olduğunu bizə xəbər ver"* - dedilər.

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun): *"Sizin ən xeyrliniz ondan xeyir ümid olunan və şərindən əmin olunan, sizin ən şərliniz isə ondan xeyir ümid edilməyən və şərindən əmin olunmayan kimsədir"* - dedi[1].

Həmçinin bənzər hədislərdən Buxari və Müslimin "Səhih" əsərlərində və digər hədis kitablarında Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun) Peyğəmbərin (onaAllahın salavatı və salamı olsun) belə dediyi rəvayət olunmuşdur: *" Yaxşı yoldaşla pis yoldaşın misalı müşk daşıyanla körük çəkənin misalı kimidir. Müşk sahibi ya sənə ətrindən ikram edər və ya sən ondan satın alarsan. Körük çəkənə gəlincə, o, ya sənin paltarını yandırar, yaxud da onun pis qoxsusu üstünə hopar"*. Bu, məşhur hədisdir[2].

Həqiqətən hər bir insan dünya və axirətdə səadət və xoşbəxtliklə dolu uğurlu həyat sürmək istəyər. Ənəsin nəql etdiyi kimi hədisləri, həmçinin

---

1 "Sünən ət-Tirmizi" 2263-cü, "Müsnəd Əhməd" 8812-ci və "ibn Hibban" 528-ci hədislər. Hədis səhihdir. Bax: "Səhih əl-Cəmi" 2603- cü hədis.
2 "Səhih Buxari" 2101-5534-cü, "Səhih Müslim" 2628-ci hədislər.

bu hədisin mənasında olan bənzər hədisləri eşitdikdə, şəkk yoxdur ki, qəlb şövq və ümidlə hərəkətə gəlir, nəfs xeyrə açar olmaq və şərə qıfıl olmaq üçün rəğbət bəsləyir.

Şəkk yoxdur ki, həqiqətən hər bir müsəlmanın istədiyi; özünün xeyrə açar olub halı xoş olan kimsələrdən olması və özünün şərə açar olmayaraq halı vay olan kimsələrdən olmamasıdır. Vay - Allahın şərə açar və xeyrə qıfıl olan kimsələrə hazırladığı şiddətli əzab və ağrıdıcı cəzadır.

Nəfs buna nail olmağa ümid edib həsrət çəkdikdə, buna aparan səbəbləri həyata keçirib, tələb və məqsədlərinə əməl etmək üçün çalışması labüd olur. Beləliklə qul əməl və tətbiqlə gerçək şəkildə xeyrə açar və şərə qıfıl olur. Bunun üçün arzu etmək və bunu gözəl görmək kifayət deyil. Bu işin həqiqətini başa düşmək, kamil bir şəkildə Allahdan yardım istəyərək və bunu həyata keçirmək üçün Ona sığınaraq yerinə yetirmək gərəkir.

Daha sonra əsas məqsədə keçirik, bu isə:

**“XEYRƏ NECƏ AÇAR OLA BİLƏRSƏN?”** sualıdır.

Hər birimizin ehtiyacı olan bu mühüm və əzəmətli sual barəsində bəhsimiz bir neçə hissədən ibarət olacaq. Bu hissələrdə ən mühüm məsələlərdən bəhs açılacaq, bir mövzu digərinin ardınca tərtibli şəkildə ərz ediləcək.

# BİRİNCİ
# ALLAH XEYRƏ QAPI AÇANLARIN ƏN XEYRLİSİDİR

Bilməliyik ki, həqiqətən **“əl-Fəttəəh”**[1] olan Uca Allah xeyrə qapı açanların ən xeyrlisidir.

“Əl-Fəttəəh”, Allahın adlarından biridir. Allahın bu ayəsinə əsasən Allahın ən gözəl adlarına iman gətirmiş hər bir müsəlmanın “əl-Fəttəəh” adına iman etməsi və ümumən bu adlarla ən gözəl şəkildə Allaha yaxınlaşması və ibadət etməsi vacibdir:

﴿ وَلِلَّهِ ٱلْأَسْمَآءُ ٱلْحُسْنَىٰ فَٱدْعُوهُ بِهَا ۖ وَذَرُوا۟ ٱلَّذِينَ يُلْحِدُونَ ﴾

*“Allahın gözəl adları var, bu adlarla Ona dua edin”*[2].
Allahın adları ilə Ona dua etmək əmrinə ibadət duası və istək duası da daxildir. İbadət duasına Allahın adını başa düşmək, nə tələb etdiyini bilmək və bu adın sifətinə iman etmək, sonra isə imanın tələb etdiyi kimi bu adla Allaha yaxınlaşmaq və ibadət etmək daxildir.

Allahın adlarından olan “əl-Fəttəəh” adı Qurani-Kərimdə iki yerdə varid olub:

**1. Birinci:** Allah Şueyb Peyğəmbərin duasını zikr edir:

﴿ رَبَّنَا ٱفْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِٱلْحَقِّ وَأَنتَ خَيْرُ ٱلْفَٰتِحِينَ ﴾

---

1 “Əl-Fəttəəh” Allahın isimlərindən bir isimdir və mənası, "hikmətinin və elminin tələbi üzrə quluna Öz mülkünün, rəhmətinin və ruzisinin xəzinələrindən istədiyi qədər açan". Həmçinin bu adın mənalarından “qulları arasında ədalətlə hökm verəndir”.
2 “əl-Əraf”, 180.

*“Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver, Sən hökm verənlərin ən yaxşısısan”[1].*

**2. İkinci:** Uca Allah bu ayədə buyurur:

﴿ قُلۡ يَجۡمَعُ بَيۡنَنَا رَبُّنَا ثُمَّ يَفۡتَحُ بَيۡنَنَا بِٱلۡحَقِّ وَهُوَ ٱلۡفَتَّاحُ ٱلۡعَلِيمُ ﴾

*“De, Rəbbimiz hamımızı bir araya cəmləşdirib sonra da aramızda ədalətlə hökm verəcəkdir. O, ən ədalətli Hakimdir, Biləndir”[2].*

Allahın “əl-Fəttəəh” adı, Onun - bütün xeyir qapılarını qullarına açan - sifətinə dəlalət edir. Bu əzəmətli sifətin əhatə etdiyi mənaları elm əhli qeyd etmişdir. Bu mənalar "əl-Fəttəəh" adına dəlalət edən mənalardır. Bilin və agah olun ki, bu adın mənası Allahın öz şəriəti, cəzası və qədəri hökmlərilə qulları arasında hökm verməsidir. Uca Allah belə buyurur:

﴿ مَّا يَفۡتَحِ ٱللَّهُ لِلنَّاسِ مِن رَّحۡمَةٖ فَلَا مُمۡسِكَ لَهَاۖ وَمَا يُمۡسِكۡ فَلَا مُرۡسِلَ لَهُۥ مِنۢ بَعۡدِهِۦۚ وَهُوَ ٱلۡعَزِيزُ ٱلۡحَكِيمُ ﴾

*“Allah insanlara mərhəmətindən hansı qapını açarsa, heç kəs onun qarşısını ala bilməz, Onun vermədiyi bir şeyi də ondan başqa heç kəs verə bilməz. O, Qüdrətlidir, Müdrikdir”[3].*

---

1 “əl-Əraf”, 89. Abdurrahman bin Nasir əs-Sədi (Allah ona rəhmət etsin) bu ayənin açıqlamasında belə demişdir: Yəni, Ey Rəbbimiz! Məzluma və haqlı kimsəyə, zalım və haqqa qarşı inadkar olan kimsə üzərində yardım et. Allahın qulları üçün xəzinələrindən açması iki növdür: Birinci növ, onlara batili haqdan, zəlaləti isə doğru yoldan ayırd edəcək elm bəxş etməsi, bu isə doğru yol üzərində olan və həmçinin bu yoldan azan kimsələr üçündür. İkinci növ isə, zülm edənlərə etdiyi əməllərinin cəzasını verməsi və saleh olan kimsələri isə (oddan) qurtarıb, onlara əta etməsidir. “Təysir əl-Kərim ər-Rahmən fi təfsiri kələm əl-Mənnən” kitabı 274-275-ci səhifələr.

2 “Səba”, 26.

3 “Fatir”, 2.

## XEYRƏ NECƏ AÇAR OLA BİLƏRSƏN?

Uca Allah "əl-Fəttəəhdir". Buna görə də xeyrə açar olmaq istəyənlərin atacağı ilk addım xeyir qapılarını açanların ən xeyrlisinə, yəni "əl-Fəttəəhə" yönəlmək olmalıdır. Həmçinin, nail olmaq ümidilə Allahla sadiq olaraq "əl-Fəttəəh" adı ilə Ona vəsilə tutub Onun qarşısında zəlil olmaqdır.

Uca Allah Özünə dua edən qulunu ümidsiz qoymaz, mömin qulunun Onun dərgahından ümid etdiyi şeyi rədd etməz. Bütün xeyir qapılarının açılması Allah tərəfindəndir, Allah sənə faydalı elm, saleh əməl və fəzilətli əxlaqla xeyir qapılarını açır.

Necə ki, bəzi sələflər belə deyərdi: *"Həqiqətən gözəl əxlaq bəxşişdir, Allah sevdiyi quluna bu əxlaqdan bəxş edir"*. Uca Allah əxlaqı, ruzini, əməlləri, əcəli və digər şeyləri qulları arasında bölmüşdür.

Buna görə də bu məqamda ediləcək ilk iş, Allaha kamil şəkildə sığınmaq və ondan yardım diləməkdir. Sənin elmə nail olmağın, fəhmə (başa düşməyə) sahib olmağın, gözəl əxlaqı həyata keçirməyin, bir ibadəti yerinə yetirməyin və digər əməlləri icra etməyin yalnız Allahın sənə yardımı və xeyir qapılarını sənə açması ilə mümkündür.

Bu məqamda tabiin alimlərindən olan Mutarrif bin Abdullah bin əş-Şixxirin (Allah ona rəhmət etsin) dediyi söz necə də gözəl və maraqlıdır: *"Əgər qəlbim yerindən çıxarılıb mənim sol tərəfimə (yəni köksümün sağına) yerləşdirilsə və bütün xeyrlər gətirilib mənim köksümün sağına (yəni qəlbimin yerinə) qoyulsa, Allah bu xeyrləri qəlbimə yerləşdirmədikcə, mən onların heç birinə nail ola bilmərəm"*.

Əvvəldə də, sonda da bütün işlər Allahın əlindədir. Bəzi insanlar görərsən ki, moizələri, özünə dünyada və axirətdə faydalı olan, xeyir, saleh əməl və qurtuluş qapılarını eşidir, lakin nəfsi onu əməldən uzaq tutur və yayındırır, əməli az olur. Müvəffəqiyyət Allahın əlindədir, güc və qüdrət Ondandır.

# İKİNCİ ALLAHI TƏKLƏŞDİRMƏK VƏ DİNİ YALNIZ ALLAHA XAS ETMƏK

Bilməliyik ki, həqiqətən xeyrin ən əzəmətli və ən uca açarı Allahı ibadətdə təkləşdirmək və dini yalnız Onun üçün xalis etməkdir.

Tövhid hər bir xeyrə açardır, o, cənnətin açarıdır. İmam əl-Bəzzar "Müsnəd" əsərində Muaz bin Cəbəldən (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edir: *"Cənnətin açarı "Lə iləhə illəllah" şəhadətidir"*[1].

Bu hədisin isnadında problem var, lakin şəkk yoxdur ki, hədisin mənası haqdır və səhihdir. Peyğəmbərin sünnəsində bu hədisin mənasını təsdiqləyən bir neçə digər hədislər də mövcüddur. Odur ki, bu mövzunu çox uzatmıram.

Daha açıq-aşkar olan isə İmam Müslimin Ömər bin əl-Xəttabdan (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət etidiyi hədisdir: *"Dəstəmaz alıb əzalarını tam şəkildə yuyan elə bir qul yoxdur ki, dəstəmazdan sonra "əşhədu ən lə iləhə illəllah və ənnə Muhammədən abduhu və rasuluhu" (Allahdan başqa ibadətə haqqı olan məbudun olmadığına və Muhammədin onun qulu və elçisi olduğuna şəhadət edirəm) deyərsə, (qiyamət günü) Cənnətdən səkkiz qapı açılar və ona "bu qapıların hansından istəyirsən daxil ol" deyilər"*[2].

Tövhid Cənnətin açarıdır, kim bu tövhid açarı ilə gəlməzsə Cənnətə daxil olmaz. Buna görə Uca Allah kafirlər barədə Qurani Kərimdə belə buyurur:

1 "Müsnəd əl-Bəzzar" 2660-cı hədis.
2 "Səhih Müslim" 234-cü hədis.

﴿ إِنَّ ٱلَّذِينَ كَذَّبُوا۟ بِـَٔايَٰتِنَا وَٱسْتَكْبَرُوا۟ عَنْهَا لَا تُفَتَّحُ لَهُمْ أَبْوَٰبُ ٱلسَّمَآءِ وَلَا يَدْخُلُونَ ٱلْجَنَّةَ حَتَّىٰ يَلِجَ ٱلْجَمَلُ فِى سَمِّ ٱلْخِيَاطِ ۚ ﴾

*“Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara qarşı təkəbbürlük edənlərə göyün qapıları açılmayacaq və dəvə iynənin dəliyindən keçməyincə onlar Cənnətə girməyəcəklər”*[1].

Cənnətə daxil olmaq yalnız tövhid ilə olur. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Cənnətə yalnız mömin nəfs daxil olacaq”*[2].

“Lə İləhə İlləllah” tövhid kəliməsidir, bir az əvvəl də zikr olunduğu kimi, Cənnətin açarıdır. Lakin bu açara əməl olunmazsa, qulun cənnətə daxil olması da mümkün olmaz və yalnız bu kəlimənin şərtlərini həyata keçirməklə mümkün olar.

İmam Buxari (Allah ona rəhmət etsin) özünün “əs-Səhih” kitabında tabiin alimlərindən olan Vəhb bin Munəbbihdən (Allah ona rəhmət etsin) belə soruşulduğunu rəvayət edir: *“Məgər “Lə iləhə illəllah” Cənnətin açarı deyilmi?” O: “Bəli, lakin elə bir açar yoxdur ki, onun dişləri olmasın, əgər dişləri olan açarla gəlsən qapı sənə açılar, yoxsa qapı sənə açılmaz”*[3].

Açarın dişləri “Lə İlələ İlləllah”-ın şərtlərinə işarə edir. Qul bu şərtləri həyata keçirər və Qiyamət günü bununla gələrsə, yalnız bu halda bu

1 “əl-Əraf”, 40

2 “Müsnəd Əhməd” 594-cü, “Sünən ət-Tirmizi” 871-ci hədislər və “Müstədrak əl-Hakim” 2\331-ci səhifədə zikr olunub. İmam əz-Zəhəbi buna müvafiq olmuş və buda doğru olandır. Bax: “İrva əl-Ğalil” kitabı 4\301-ci səhifə.

3 “Səhih Buxari” cənazələr kitabı, “cənazə barədə varid olan fəsildə” hədisi “muallaq” olaraq qeyd etmiş və Hafiz bin Həcər “Fəth əl-Bəri” kitabında 3\132-ci səhifədə, İmam Buxari bu rəvayəti özünün “ət-Tərix” və Əbu Nueym “əl-Hilyə” kitablarında tam olaraq rəvayət etdiklərini demişdir.

kəlimə ona fayda verər. Bu şərtlər Allahın kitabında və Peyğəmbərin sünnəsində varid olmuş yeddi şərtdir. Elm əhli "Kitab ət-Tövhiddə" bu şərtləri və hər bir şərtin dəlillərini qeyd etmişdir. Bəhsi uzatmadan bu şərtləri zikr edirəm: cəhalətin əksi olan elm, şəkk və şübhənin əksi olan yəqinlik, yalanın əksi olan sadiqlik, şirkin və riyanın əksi olan ixlas, qəzəb və nifrətin əksi olan sevgi, tərk etmənin əksi olan boyun əymək və rədd etmənin əksi olan qəbul etmək:

"Elm, yəqinlik, ixlas, sadiqlik",
"Sevmək, qəbul etmək, bir də zəlillik".

Şeyx Hafiz Həkəmi (Allah ona rəhmət etsin) "Sulləm əl-Vusul" adlı şeirində gözəl beytlərlə bu yeddi şərt qeyd etmiş və "Məaric əl-Qəbul" kitabında bu şərtləri ərtraflı olaraq açıqlamışdır:

***Yeddi şərtlə məhdudiyyət qoyulub,***
***Vəhydə bunlar haqq olaraq varid olub.***
***Faydalana bilməz bunları deyən,***
***Və yalnız nitqilə kamilləşdirən.***
***Elm, yəqinlik, qəbul etməkdir,***
***Uca Yaradana boyun əyməkdir.***
***Gərəkdir sadiqlik, ixlas və sevgi,***
***Qul tərəfindən hasilə yetsin,***
***Allah səni sevdiyi, razı qaldığı,***
***Bütün əməllərə müvəffəq etsin!***

Bu, əzəmətli kəlimələrdir, Cənnətin açarı olan tövhid kəlimələridir. Özünün və başqalarının xeyrə açar olmasını istəyən bir kimsənin tövhidi gerçəkləşdirməsi və Allah üçün ixlaslı olması vacibdir. İnsanın bütün əməllərini, ibadətlərini və itaətlərini Allahın Üzü xatirinə etməsi gərəkir. İnsan, digər insanlara yaxşılıq etmək və onlarla gözəl rəftar etməklə Allaha yaxınlaşır. Uca Allah belə buyurur:

﴿ إِنَّمَا نُطۡعِمُكُمۡ لِوَجۡهِ ٱللَّهِ لَا نُرِيدُ مِنكُمۡ جَزَآءٗ وَلَا شُكُورًا ﴾

*“Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!”*[1].

Qul əməl edir, Qiyamət günü bu əməllərlə gəlir və bu əməllərlə yalnız Allahın verəcəyi savaba nail olmağı və Onun ixlaslı qullarına verdiyi böyük vədini istəyir.

1 “əl-İnsan”, 9

# ÜÇÜNCÜ
# FAYDALI ELM

Allahın kitabından və Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) sünnəsindən qaynaqlanan faydalı elm. Elm, qulun xeyrə açar olması üçün labüd olan əsasdır. Elm olmazsa, insan xeyrin açarlarını şərin açarlarından necə ayırd edə bilər? Haqqı batildən necə ayırar? Sünnəni bidətdən necə ayırd edər? Doğru yolu zəlalətdən necə fərqləndirər? Elmi olmayan bir kimsə batildən necə qoruna bilər? Keçmişdə belə deyərdilər:

**"Qorunacağı şey barədə bilməyən kimsə necə ondan qorunar?!"**

Həmçinin Uca Allah belə buyurur:

﴿ قُلۡ هَٰذِهِۦ سَبِيلِيٓ أَدۡعُوٓاْ إِلَى ٱللَّهِۚ عَلَىٰ بَصِيرَةٍ ﴾

*"De, bu mənim yolumdur, mən Allaha bəsirət üzərində çağırıram"*[1]. Bəsirətin mənası faydalı elmdir. Faydalı elmi olmayan bir kimsə haqqı batildən və doğru yolu zəlalətdən necə fərqləndirəcək ?

Uca Allah belə deyir:

﴿ أَفَمَن يَمۡشِي مُكِبًّا عَلَىٰ وَجۡهِهِۦٓ أَهۡدَىٰٓ أَمَّن يَمۡشِي سَوِيًّا عَلَىٰ صِرَٰطٖ مُّسۡتَقِيمٖ ﴾

*"Elə isə üzü üstə sürünərək gedən daha doğru yoldadır, yoxsa düz yolda özü şax gedən?"*[2].

Və başqa ayədə:

---

1 "Yusuf", 108
2 "əl-Mulk", 22

﴿ أَفَمَن يَعۡلَمُ أَنَّمَآ أُنزِلَ إِلَيۡكَ مِن رَّبِّكَ ٱلۡحَقُّ كَمَنۡ هُوَ أَعۡمَىٰٓۚ إِنَّمَا يَتَذَكَّرُ أُوْلُواْ ٱلۡأَلۡبَٰبِ ﴾

*“Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kor kimsəyə bənzəyə bilərmi ? Ancaq ağıl sahibləri ibrət alarlar”*[1].

Yenə başqa bir ayədə Uca Allah belə buyurur:

﴿ قُلۡ هَلۡ يَسۡتَوِي ٱلَّذِينَ يَعۡلَمُونَ وَٱلَّذِينَ لَا يَعۡلَمُونَۗ ﴾

*“De, heç bilənlə bilməyən eyni olarmı?”*[2].

Xeyrə qapı olmaq istəyən kimsə faydalı elm öyrənməyə həris olması vacibdir. O, bu elmin qeydinə diqqətlə qalmalıdır. Əl-Beyhəqinin rəvayət etdiyi hədisdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə deyir: *“Kim elm öyrənmək üçün səhər evdən çıxar və öyrənərsə, Allah ona Cənnətdən qapı açar”*[3]. Bu hədisin isnadı zəifdir, lakin bu zəif hədis mövcud olmasa belə, Əbu Dərdanın (Allah ondan razı olsun) və digərlərinin Peyğəmbərdən (ona Allahın salavatı və salamı olsun) səhih olaraq rəvayət etdiyi hədis bizə kifayət edər. O, (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *“Kim elm öyrənmək üçün bir yola düşərsə, Allah ona Cənnətə aparan yolu asanlaşdırar”*[4].

Elm, bu mövzuda əzəmətli və böyük əsasdır. Qul xeyrə açar və şərə qıfıl olmaq üçün bu elmin qeydinə qalmalıdır. İnsan elmsiz olduqda özünün yaxşı əməl işlədiyini guman etdiyi halda zəlalət, bidət və nəfsinin

---

1 “ər-Rad”, 19
2 “əz-Zumər”, 9
3 Əl-Beyhəqi “Şuab əl-İman” 1699-cu hədis. Hədis olduqca zəifdir. Bax: “Daif ət-Tərğib və ət-Tərhib” 73-cü hədis.
4 “Müsnəd Əhməd” 5\197-ci səhifə, “Sünən əbu Davud” 3641-ci hədis, “Sünən ət-Tirmizi” 2682-ci hədis, “Sünən ibn Macə” 223-cü və ibn Hibban 88-ci hədislər. Hədis səhihdir. Bax: “Səhih əl-Cəmi” 6297-ci hədis.

havasına tabe olmaq kimi bir çox təhlükələrə düşə bilər. Bu mövzuda açıqlamaları çox uzatmadan Əd-Dəriminin (Allah ona rəhmət etsin) həsən isnadla Amr bin Sələmə əl-Həmədənidən rəvayət etdiyi məşhur hekayəni nəql edəcəm. Amr bin Sələmə əl-Həmədəni (Allah ona rəhmət etsin) belə deyir: *"Səhər namazından öncə Abdullah bin Məsudun (Allah ondan razı olsun) qapısının önündə oturardıq, çölə çıxdıqda onunla birlikdə məscidə gedərdik".*

*Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) bizim yanımıza gəldi və belə dedi: "Əbu Abdurrahman hələ də çıxmayıb?"*

Biz: *"Xeyr"* dedik. O, İbn Məsud çıxana qədər bizimlə birgə oturdu. O çıxdıqda hamımız ona tərəf getdik. Əbu Musa əl-Əşari ona belə dedi*:"Ey Əbu Abdurrahman, biraz öncə mən məsciddə bir şey gördüm, bunu xoşlamadım. Allaha həmd olsun, xeyrdən başqa bir şey görmədim".*

İbn Məsud (Allah ondan razı olsun): *"Nə gördün?"*- dedi.

O: *"Əgər yaşasan, səndə görəcəksən. Gördüm ki, məsciddə bir toplum camaat dairəvi şəkildə dəstə-dəstə oturub namazı gözləyir. Hər dəstənin başında bir kişi durub, insanların əlində çınqıl var və bu kişi insanlara belə deyir: "Yüz dəfə Allahu Əkbər deyin" və onlar da yüz dəfə "Allahu Əkbər" deyirlər, onlara, "yüz dəfə Lə İləhə İlləllah deyin" və onlar da yüz dəfə "Lə İləhə İlləllah" deyirlər, onlara "yüz dəfə SubhənAllah deyin" və onlar da yüz dəfə "SubhənAllah" deyirlər" dedim.*

İbn Məsud (Allah ondan razı olsun): *"Bəs sən onlara nə dedin?"* - dedi.

Əbu Musa (Allah ondan razı olsun): *"Sənin rəyini və ya əmrini gözləyərək onlara heçnə demədim"* - dedi.

İbn Məsud: *"Kaş ki, onalara günahlarını saymalarını deyərdin və özün də onların savablarının zay olmayacağına zamin durardın"* - dedi. Sonra biz birlikdə getdik və o, bu dəstələrdən birinin başının üzərində durub onlara belə dedi:

*"Mənim bu gördüklərim nədir? sizin etdiyiniz nədir belə?"*

Onlar: *"Ey Əbu Abdullah, çınqıllarla sayaraq "Allahu Əkbər", "Lə İləhə İlləllah" və "SubhənAllah" deyirik"* - dedilər.

İbn Məsud (Allah ondan razı olsun): *"Günahlarınızı sayın, mən sizin savablarınızdan heç bir şeyin zay olmayacağına zamin dururam. Ey Muhəmmədin ümməti vay olsun sizə! Sizin həlakınız necə də tez gəldi! Bunlar Peyğəmbərinizin səhabələridir, onlar aranızdadırlar. Bu onun paltarıdır, hələ nəmlidir, bu onun yemək yediyi qablarıdır, hələ sınmayıb. Allaha and olsun, bəlkə siz Muhəmmədin yolundan daha doğru yol üzərindəsiniz, yoxsa zəlalətə qapımı açırsınız?"* - dedi.

Onlar: *"Ey Əbu Abdurrahman! Allaha and olsun, biz yalnız xeyir istədik"* - dedilər.

İbn Məsud (Allah ondan razı olsun) **"Nə qədər xeyir istəyənlər var ki, xeyrə nail olmurlar" -** dedi.

Deməl ki, xeyrə yalnız xeyri, elmi, haqqı və sünnəni bilən kimsə nail olar.

İmam Əhməd (Allah ona rəhmət etsin) "Müsnəd" əsərində Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə söylədiyini rəvayət edir: *"Həqiqətən Allah elçisinə (ona Allahın salavatı və salamı olsun) xeyrlərin əvvəli və sonu, geniş mənaları əhatə edən qısa kəlimələr verilmişdir"*[1].

Xeyrə açar olmaq istəyirsənsə, xeyrlərin əvvəlini, xeyrləri cəm edəni və xeyrlərin sonunu öyrən; bunlara isə xeyrin imamı və bəşəriyyətin örnəyi olan Allahın Elçisi Muhəmməd bin Abdullahın (ona Allahın salavatı və salamı olsun) sözləri daxildir.

1 "Müsnəd Əhməd" 4160-cı hədis.

# DÖRDÜNCÜ İSLAM DİNİNİN FƏRZ VƏ VACİBLƏRİNİN QEYDİNƏ QALMAQ

İslamın fərz və vaciblərinin qeydinə qalmaq, bu fərzləri yerinə yetirməyə və həyata keçirməyə çalışmaqdır. Həqiqətən sənin fərzlərə qayğı göstərməyin, əhəmiyyət verməyin və bu fərzləri qorumağın, sənə ağlına gəlməyən və xəyal etmədiyin xeyrin və yaxşı əməllərin qapısını açır.

Buna sübutlar çoxdur, lakin bir neçəsi ilə kifayətlənəcəm: "Səhih əl-Buxari"-də Peyğəmbərin həyat yoldaşı, möminlərin anası Ummu Sələmənin (Allah ondan razı olsun) belə dediyi rəvayət olunub: "Bir gecə Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) oyandı və belə dedi: *"Lə iləhə illəllah"*, başqa bir rəvayətdə *"SubhənAllah, Allah bu gecə necə fitnələr (bəlalar, müsibətlər) nazil etdi, necə xəzinələr açdı!"*

Diqqət yetir, ey hörmətli oxucu! Fitnələr nazil olub və xeyir xəzinələrinin qapısı açılıb. Bəs bundan sonra Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) necə çıxış yolu göstərdi?!

O, (ona Allahın salavatı və salamı olsun) - dedi: *"Otaq sahiblərini oyadın ki, namaz qılsınlar"*.

Əgər özünü fitnədən qorumaq, özün üçün xeyir qapılarının açılmasını, xeyir yoluna düşməyi və xeyrə açar olmağı istəyirsənsə, bil ki, bunların hamısı namazdadır.

Bəlkə də bu məqamda sən Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) məscidə daxil olarkən daim dediyi sözü xatırladın. İmam Müslim özünün "Səhih" kitabında Əbu Useyd və ya Əbu Humeyddən Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edir: *"Sizdən biri məscidə daxil olarkən belə desin: "Allahumməftəhli*

*əbvəbə rahmətik" ("Allahım, rəhmət qapılarını mənim üzümə aç"). Çıxarkən isə belə desin: "Allahummə inni əsəlukə min fadlik" ("Allahım, mən sənin fəzilətindən istəyirəm")"*[1]. Başqa bir rəvayətdə *"Fəzilətinin qapılarını mənim üzümə aç"* - deyir[2].

Namaza yönəlmək və namaz qılmaq rəhmət qapılarının, namazı tam və kamil olaraq əda etmək isə ruzi qapılarının açılması üçün səbəbdir. Namaza yatıb qalan, başı namaza durmaqdan ağır olan kimsə necə özü üçün xeyir qapılarının açılmasını istəyə bilər?! Bu mövzuda hədislər çoxdur, bu hədislərdən biri də İmam ət-Tirmizi "Sünən" kitabında Əbu əd-Dərda və Əbu Zərin Allahın Elçisindən (ona Allahın salavatı və salamı olsun), onun da ilahi hədisdə Allahdan rəvayət etdiyi hədisdir:

*"Ey Adəm oğlu, günün əvvəlində mənim üçün dört rükət namaz qıl, günün sonuna qədər sənə hər şeydən kifayət edərəm (qoruyaram)"*[3]. Bu hədisi İmam Əhməd və Əbu Davud Nueym bin Həmməm əl-Ğatafənidən (Allah ondan razı olsun) səhih isnadla rəvayət etmişlər[4]. Hədis səhih və sabit olmuş hədisdir.

**Hörmətli oxucu:** *"Ey Adəm oğlu! Günün əvvəlində mənim üçün dört rükət namaz qıl"* – cümləsi barəsində düşün. Allahın sənin qıldığın rükətlərə, etdiyin səcdələrə ehtiyacı yoxdur. Lakin bu, sənə xeyir qapısının açılmasıdır, aləmlərin Rəbbi olan Allah səni buna çağırır.

Şeyxulislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) belə demişdir: *"Hədisdə keçən dörd rükət mənə görə səhər namazı və onun sünnəsidir"*[5].Yəni günün əvvəlində qıldığın səhər namazından öncə qılınan iki rükət ratibə sünnəsi və fərz namazının iki rükəti. Bunları əda etdikdən sonra bu böyük xeyrə və əzəmətli fəthə nail olursan.

---

1 "Səhih Müslim" 713-cü hədis.
2 "Sünən ət-Tirmizi" 314-cü, "Sünən ibn Macə" 771-ci hədislər.
3 "Sünən ət-Tirmizi" 475-ci hədis. Hədis səhihdir. Bax: "İrvau əl-Ğalil" 465-ci hədis.
4 "Müsnəd Əhməd" 5\286 səh, "Sünən Əbu Dəvud" 1289-cu hədis.
5 Bax: "Zədu əl-Miad" 1\360 səh.

## XEYRƏ NECƏ AÇAR OLA BİLƏRSƏN?

Səhər namazına yatıb qalaraq bu xeyrdən məhrum olan nə qədər insanlar var. Hədisdə deyildiyi kimi, yuxudan oyandığı zaman ona belə deyilər: *"Xəbis və tənbəl nəfs"*[1]. Xeyrin qapıları onun üzünə bağlanıb, ruzi qapıları onun üzünə örtülüb. Günün əvvəli onun əsası və hökmdarıdır, ruzinin və bərəkətin endirildiyi vaxtdır.

Bəzi sələflər belə deyərdilər: *"Günün sənin dəvən kimidir, əgər əvvəlini tutub saxlasan, sonu da sənin ardınca gələr". Kim günün əvvəlini namazı əda etməklə tutub saxlamazsa, günün qalanından nə gözləyir?!*

Buna görə də, özünə və başqalarına xeyir qapılarının açılması üçün ən əzəmətli əsaslar İslamın fərzlərini və dinin vaciblərini qorumağın və əda etməyindir. Bunların önündə isə namaz gəlir.

Həmçinin oruc ibadətində sənə açılan xeyrin qapılarına nəzər yetir. Bu xeyir qapılarından Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) dediyi bu əzəmətli hədisdir: *"Ramazanın ilk gecəsi Cənnətin qapıları açılar, Cəhənnəmin qapıları bağlanar və şeytanlar zəncirə vurular. Bir çağırışçı belə deyər:*

*"Ey xeyir istəyən! saleh əməllərə yönəl, ey şər istəyən, bəsdir artıq!"*[2].

İbadətlərə, fərzlərə diqqət göstərmək və onları qorumaq sənin və başqalarının xeyir yollarında öndə gedənlərdən olmaq üçün ən böyük yardımçıdır.

---

1 "Səhih Buxari" 1142-ci, "Səhih Müslim" 776-cı hədislər.
2 "Sünən ət-Tirmizi" 672-ci, "Sünən ibn Macə" 1642-ci, İbn Hibban 3435-ci, əl-Hakim 1\582-ci səhifə, sonuncu hədisin Buxari və Müslimin şərtinə müvafiq olduğunu demişdir. Hədis həsəndir. Bax: "Səhih əl-Cəmi" 759-cu hədis.

# BEŞİNCİ GÜNAHLARDAN UZAQ DURMAĞA ÇALIŞMAQ

**Qulun xeyrə açar və şərə qıfıl olması səbəblərindən:** günahlardan uzaq durub, harama və Allaha asiliyə aparan yollardan çəkinmək üçün çalışmaqdır.

İmam Əhməd "Müsnəd"əsərində ən-Nəvvəs bin Səmanın (Allah ondan razı olsun) Peyğəmbərdən (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edir:

*"Həqiqətən Allah doğru yol üçün misal çəkir. Yolun kənarlarında qapılar var və bu qapılara pərdələr asılıb, yolun başında bir çağırışçı durub belə deyir: "Ey Allahın qulları, doğru yola daxil olun, kənar düşməyin. Doğru yolun ortasından - başqa bir rəvayətdə "üzərindən" - başqa bir çağırışçı isə belə deyir: "Ey Allahın qulu, qapını açma! Əgər qapını açsan, ora daxil olacaqsan". Sonra Allahın Elçisi bunu açıqlayaraq belə deyir: "Yol İslamdır, asılan pərdələr Allahın hədləridir, pərdə asılmış qapılar isə Allahın haramlarıdır. Yolun başında duran çağırışçı Allahın kitabı, yolun ortasında və ya üzərində duran çağırışçı isə hər bir müsəlmanın qəlbində ona öyüd-nəsihət edəndir"*[1].

Qul harama qapı və ya batilə pəncərə açmaq üçün nəfsi onu danışdırdıqda, qəlbində ona öyüd-nəsihət edənin olması Allah tərəfindən hər bir müsəlmana olan nemətdir. Bu nəsihətçi onu çəkindirər və belə deyər: "Ey Allahın qulu! qapını açma, əgər sən qapını açsan, ora daxil olacaqsan".

---

1 "Müsnəd Əhməd" 17634-cü, əl-Həkim 1\144-cü səhifədə rəvayət edib və hədisin İmam Müslimin şərtlərinə müvafiq olduğunu bildirib. Hədis səhihdir. Bax: "Səhih əl-Cəmi" 3887-ci hədis.

## XEYRƏ NECƏ AÇAR OLA BİLƏRSƏN?

Kim özünün xeyrə açar və şərə qıfıl olmasını istəyirsə, bu hədisin işığı altında bilsin ki, doğru yol üzərində irəliləməsi onu Nəim cənnətlərinə aparacaq. Bu doğru yolun kənarlarında, sağında və solunda çoxlu qapılar var, bu qapıların nə qıfılları, nə də açarları yoxdur, sadəcə üzərlərində pərdələr asılıb. Bu qapılar harama aparan qapılardır.

Bəllidir ki, üzərindən pərdə asılan qapıya daxil olmaq üçün nə çətinlik, nə vaxt, nə də cəhd göstərmək lazım olmur, insan sadəcə çiynilə toxunur və qapıdan içəri sürətlə daxil olur. Qıfıllı qapını isə əksinə, açmaq üçün açar gərəkir, bu isə sənin vaxtını alır. Üzərindən pərdə asılan qapıdan isə insan sürətlə daxil olur.

Sən doğru yol üzərində irəliləyirsən, bu yolun kənarlarında olan qapılar səni harama aparır və bu qapıların üzərindən sadəcə pərdələr asılıb.

Xeyrə qapı olmaq istəyən insanın sağında və solundakı şər qapılarından tamamilə uzaq durması vacibdir. Bu qapıların birindən daxil olarsa, ilk olaraq özü, sonra da başqaları üçün şər qapısını açmış olar. Çünki nəfs harama daxil olub orada qədəmlərini möhkəmləndirərsə, haramı etməyə bacarar. Nəfs bu haramda tək olmağı istəməz, beləliklə insan haramı edən kimsədən harama çağıran və başqalarını ona rəğbətləndirən kimsəyə çevrilər.

Bu, batil əhlinin, zəlalət dəvətçilərin və hər zaman da fasiq insanların halı olmuşdur: insan ilk əvvəl qədəmlərini haramda möhkəmləndirər və onun qapılarından içəri daxil olar, sonra isə harama çağıran kimsələrdən olar. Rəşidi xəlifə Osman bin Affən (Allah ondan razı olsun) buna oxşar mənada belə deyir: *“Zinakar qadın bütün qadınların zina etməsini istəyir”*[1].

Harama düşən kimsə özünün haramda tək qalmasını istəməz, nəfsi haramı edən olmaqdan harama çağıran kimsəyə çevrilər. Beləcə insan şərə açar və xeyrə qıfıl olar. Bundan Allaha sığınırıq.

---

1 Bax: İbn Teymiyyənin “əl-İstiqamə” kitabı, 2\257-ci səhifə.

# ALTINCI
# DUA ETMƏK

**Dua hər bir xeyrin açarıdır.** Sələflərdən biri buna dair demişdir: *“Xeyrləri cəm edən şey barədə düşündüm və xeyrin olduqca çox qapılarının olduğunu gördüm; namaz qılmaq xeyrdir, oruc tutmaq xeyrdir, həcc etmək xeyrdir, xeyrin qapıları çoxdur. Bunların hamısının Allahın əlində olduğunu bildim, yəqin oldum ki, dua bütün xeyrlərin açarıdır”.*

Allah sənə yardım etməsə namaz qıla, oruc tuta, sədəqə verə və valideyinlərinə yaxşılıq edə bilməzsən. Yaxşı əməlləri yalnız Allah sənə yardım etdikdə yerinə yetirə bilərsən.

Buna görə də Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) “Əhzəb[1]” günü belə qəsidə deyirdi:

*Vallahi, əgər Allah bizi doğru yola yönəltməsə idi,*
*Biz nə oruc tutardıq, nə də namaz qılardıq[2].*

Uca Allah belə deyir:

﴿ وَلَوْلَا فَضْلُ ٱللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُۥ مَا زَكَىٰ مِنكُم مِّنْ أَحَدٍ أَبَدًا وَلَٰكِنَّ ٱللَّهَ يُزَكِّى مَن يَشَآءُ ۗ ﴾

*“Əgər Allahın lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı”[3].*

Yenə başqa bir ayədə Uca Allah belə deyir:

---

1 Hicrətin 5-ci ilində şəvval və yaxud zülhiccə ayında Müsəlmanlarla müxtəlif ərəb qəbilələri arasında baş vermiş döyüş günüdür. Bu döyüş “Xəndək döyüşü” kimi də tanınır..

2 “Səhih Buxari” 6620-ci, “Səhih Müslim” 1803-cü hədislər.

3 “ən-Nur”, 21.

﴿ وَلَٰكِنَّ ٱللَّهَ حَبَّبَ إِلَيۡكُمُ ٱلۡإِيمَٰنَ وَزَيَّنَهُۥ فِي قُلُوبِكُمۡ وَكَرَّهَ إِلَيۡكُمُ ٱلۡكُفۡرَ وَٱلۡفُسُوقَ وَٱلۡعِصۡيَانَۚ أُوْلَٰٓئِكَ هُمُ ٱلرَّٰشِدُونَ ٧ فَضۡلٗا مِّنَ ٱللَّهِ وَنِعۡمَةٗۚ وَٱللَّهُ ﴾

*“Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş və sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət hissi oyatmışdır. Doğru yolda olanlar da bunlardır. Bunlar Allahın lütfü və neməti sayəsindədir”*[1].

Beləcə xeyrə açar, fəzilət əhlindən, zəkalı elm əhlindən və əzəmətli və fəzilətli əməl sahiblərindən olmaq istəyirsənsə, Allahdan istə, bunların hamısı Allahın əlindədir. Elm əhlindən birisi belə söyləyir: “Dua bütün xeyrlərin açarıdır, kim bu açara müvəffəq olarsa, artıq xeyrə müvəffəq olmuş, kim də bu açardan (duadan) məhrum olmuşsa, xeyrdən məhrum olmuşdur”.

Duanı Allaha sığınaraq, sidq ürəklə, Allahın kitabında və Peyğəmbərinin sünnəsində sabit olmuş dua ədəblərinə, şərt və qaydalarına riayət edərək etmək ən əzəmətli bir iş və bu məqamda həqiqətən ən əsas olandır. Bəzən Allaha, Onun dərgahında olanlara (savaba, Cənnətə və s.) ümid edərək, Onun rəhmətini umaraq, sadiq olaraq üz tutursan və Allah sənin duanı qəbul edir. Beləliklə, həyatını bütövlükdə xeyrə açar və şərə qıfıl olaraq yaşayırsan.

Bu mövzuda dualar çoxdur, bunları qeyd etməklə mövzunu çox uzatmayacam. Lakin Peyğəmbərimizin (ona Allahın salavatı və salamı ona olsun) hər dəfə evdən çıxarkən etdiyi duanı deyəcəm: *“Allahummə inni əuzu bikə ən adillə əv udallə, əv əzillə əv uzəllə, əv əzləmə əv uzləmə, əv əchələ əv yuchələ aleyy” (“Allahım azmaqdan və ya azdırılmaqdan, ayağımın sürüşməsindən və ya sürüşdürülməkdən, zülm etməkdən və ya*

1 “əl-Hucurat”, 7-8

*zülm olunmaqdan, cahillik etməkdən və ya (mənə qarşı) cahillik edilməkdən sənə sığınıram")*[1].

Bu əzəmətli duanın gözəlliyinə və hər dəfə evdən çıxdıqda bu duaya olan şiddətli ehtiyacına diqqət yetir. Əgər Allah sənə ikram edərsə, sənin bu duanı qəbul edər, beləcə sən xeyrə açar və şərə qıfıl olarsan.

Bəzi sələflər öz dualarında belə deyərdilər: *"Allahummə səllimni və səllim minni" ("Allahım məni salamat və məndən salamat et").* Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) etdiyi dua bundan daha geniş mənalı, daha gözəl və daha kamildir.

Xeyrə açar olmaq istəyən kimsənin Allaha sığınması və dua ilə ona yalvarması vacibdir ki, Allah onu xeyrə açar etməklə izzətləndirsin.

Peyğəmbərimizin (ona Allahın salavatı və salamı olsun) hər gün sübh namazından sonra daimi olaraq etdiyi əzəmətli dualardan biri: *"Allahummə inni əsələkə ilmən nəfian və amələn mutəqabbələn və rizqan tayyibən" ("Allahım, səndən fayda verən elm, məqbul olan əməl və halal ruzi istəyirəm")*[2].

Həmçinin bu əzəmətli dualardan biri də Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) Aişəyə (Allah ondan razı olsun) öyrətdiyi duadır: *"Allahummə inni əsələkə minəl-xayri kullihi acilihi və əcilihi, mə alimtu minhu və mələ əaləm, və əuzu bikə minəş-şərri kullihi acilihi və əcilihi, mə alimtu minhu və mələ əaləm, Allahummə inni əsələkə min xayrin mə səələkə abdukə və nəbiyyukə, və əuzu bikə min şərrin mə azəbihi abdukə və nəbiyyukə, Allahummə inni əsələkəl-Cənnətə və mə qarrabə ileyhə min qavlin və aməlin, və əuzu bikə minə-nnəri və mə qarrabə ileyhə min qavlin və aməlin, və əsələkə ən təcəalə kullə qadain qadaytəhu li xayran" ("Allahım səndən bildiyim və bilmədiyim dünya və*

---

1 "Sünən Əbu Dəvud" 5094-cü, "Sünən ibn Macə" 3884-cü, "Sünən ət-Tirmizi" 3427-ci hədislərdə rəvayət olunub və sonuncu, bu hədisin "həsən səhih" olduğunu bildirib. Hədis səhihdir. Bax: "Silsilə əs-Səhihə" 3163-cü hədis.
2 "Müsnəd Əhməd" 26521-ci, "Sünən ibn Macə" 925-ci hədislərdə Ummu Sələmədən rəvayət edilib. Hədis səhihdir. Bax: "Səhih Sünən ibn Macə" 753-cü hədis.

*axirətin bütün xeyrlərini istəyir və bildiyim və bilmədiyim dünya və axirətin bütün şərlərindən sənə sığınıram, Allahım qulun və Peyğəmbərinin (Muhəmmədin) səndən istədiyi bütün xeyrləri istəyir, qulun və Peyğəmbərinin sənə sığındığı bütün şərlərdən sənə sığınıram. Allahım səndən Cənnəti və məni ona yaxınlaşdıracaq söz və əməllərə (məni müvəffəq etməyini) istəyir və Cəhənnəmdən və məni ona yaxınlaşdıracaq söz və əməllərdən sənə sığınıram. Səndən mənim barəmdə verdiyin bütün hökmləri mənim üçün xeyrli etməyini istəyirəm"*[1].

1 "Müsnəd Əhməd" 25019-cu, "Sünən ibn Macə" 3846-cı, "ibn Hibban" 869-cu hədislərdə Aişədən rəvayət ediblər. Hədis səhihdir. Bax: "Silsilə əs-Səhihə" 1542-ci hədis.

# YEDDİNCİ
# FİTNƏ VƏ ŞÜBHƏ YERLƏRİNDƏN ÇƏKİNİB UZAQ DURMAQ

**İnsanın xeyrə açar olması üçün səbəblərdən biri də fitnə və şübhə yerlərindən çəkinib uzaq durmaqdır.**

Bununla qul öz nəfsindən və insanlar üçün şərə açar olmaqdan salamat qalmış olur. Abdullah bin Məsud (Allah ondan razı olsun) belə söyləmişdir: *“Şübhəli işlər baş verəcək, sizə vacib olan isə təmkinli olmaqdır. Sənin xeyrdə arxada getməyin, şərdə öndə getməyindən daha xeyrlidir”*[1].

Beləcə kim özünün xeyrə açar və şərə qıfıl olmasını istəyirsə, şübhəli və fitnəli işlərdə diqqətli olsun, bu cür işlərə qarışmasın, ağılsız və diqqətsiz kimsələr kimi önə atılmasın, çünki onlar özlərini və başqalarını həlaka düçar ediblər. Səbrli və təmkinli olsun, düşünsün, böyük alimlərə və imamlara zəng etsin, onlarla məşvərət edib onların rəylərinə əməl etsin, özünün götürdüyü rəyə və ya nəfsinə xoş gəldiyi üçün və yaxud da kiminsə dediyi sözə görə önə atılmasın. Çünki əgər səbrli və təmkinli olmadan önə atılarsa, özünü şərə atmış olar, həmçinin başqaları üçün də şərə açar olar.

Buna görə də insana vacib olan səbrli və təmkinli olması, işləri sakit və mülayim şəkildə həll etməsi, elm əhli ilə məşvərət etməsi və onu şərlərdən uzaq etməsi üçün Allaha çoxlu dua etməsidir. Fitnələrin və şübhələrin ardınca düşüb, onlara qarışıb önə atılmasın, yoxsa özü və başqaları üçün çıxış yolu olmayan bir şərə açar olmuş olar.

1 “Musannəf bin əbi Şeybə” (15\34) və “əş-Şuab əl-Beyhəqi” (7\297).

# SƏKKİZİNCİ
# HƏR BİR İŞDƏ ŞƏFQƏTLİ OLMAQ VƏ İNSANLARLA ƏN GÖZƏL ƏXLAQLA MÜAMİLƏ ETMƏK

**Həmçinin insanın xeyrə açar olması üçün səbəblərdən biri də hər bir işdə şəfqətli olmaq və insanlarla ən gözəl əxlaqla müamilə etməkdir.**

Həqiqətən bu, sənin xeyrə açar olmağın üçün ən böyük yardımçıdır. Yəqin ol, ey müvəffəq olan qardaşım! Həqiqətən kobud əxlaq və pis müamilə sahibinin insanların qəlbini açması mümkün deyil. Allah Subhənəhu və Təalə Adəm övladının ağası olan Peyğəmbərinə belə demişdir:

﴿ فَبِمَا رَحۡمَةٖ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمۡۖ وَلَوۡ كُنتَ فَظًّا غَلِيظَ ٱلۡقَلۡبِ لَٱنفَضُّواْ مِنۡ حَوۡلِكَۖ ﴾

*“Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin, əgər sən kobud və daş qəlbli olsaydın, onlar sənin ətrafından mütləq dağılışardılar”*[1].

İnsanlar kobud, şiddətli, sərt və pis əxlaqı olanlardan uzaq qaçırlar, hətta bu kimsənin dediyi onların xeyrinə olsa belə. Həqiqətən insanın gözəl əxlaq sahibi olmaması, pis rəftarı və kobud üslubu səbəbilə insanlar ondan uzaq qaçır. Buna görə insanın xeyrə açar olması üçün insanlarla şəfqətlə müamilə etməsi, onalara gözəl, yumşaq və təvazökar söz söyləməsi, insanlara təkəbbürlü və onlara yuxarıdan aşağı baxan sözlər deməməsi gərəkir. Bu barədə Peyğəmbərin sünnəsindən misal çəkəsi

1 “əli-İmran”, 159

olsaq, mövzu geniş alınar. Amma təəccüb və dəhşət doğuran bir misalı xatırladacağıq.

Peyğəmbərimiz (ona Allahın salavatı və salamı olsun) ən şiddətli əziyyətlərə məruz qaldığı Məkkə şəhərini fəth edərək oraya daxil olduğu zaman Əbu Bəkr (Allah ondan razı olsun) atasının əlindən tutdu və onlar Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) yanına gəldilər. Həmin vaxt onun atası hələ İslam dinini qəbul etməmişdi, saçı-saqqalı, qaşları ağarmışdı, ağ meyvələri olan ağaca bənzəyirdi. Əbu Bəkr (Allah ondan razı olsun) saçı-saqqalı ağarmış yaşlı kişiylə birgə Peyğəmbərin (onaAllahın salavatı və salamı olsun) yanına gəldi. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) ona nə dedi?! ***"Kaş ki, şeyxi evində qoyardın, mən onun yanına gələrdim"*[1]**. Bu uca və əzəmətli əxlaq, şiddətli əziyyətlərə məruz qaldığı şəhəri fəth edərək ora daxil olan bir kişinin əxlaqıdır. Bu əxlaq qəlblərə necə təsir bağışlayar?

Sonra, Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) əlini onun sinəsinə qoydu və: *"Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və mənim Allahın Elçisi olduğuma şəhadət edirsənmi?"* - dedi.

O, (Allah ondan razı olsun): *"Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və sənin Allahın Elçisi olduğuna şəhadət edirəm"* - dedi.

Allahın Elçisi əlini gənc və azyaşlı sahabələrdən olan Muazın çiyninə qoyaraq belə demişdir: *"Ey Muaz, həqiqətən mən səni sevirəm, hər namazın sonunda bu sözləri deməyi tərk etmə: "Allahummə əinni alə zikrikə və şukrukə və husni ibədətik", ("Allahım səni zikr etməyə, sənə şükür etməyə və sənə gözəl şəkildə ibadət etməyə mənə yardım et")*[2].

1 "Müsnəd Əhməd" 26956-cı, "ibn Hibban" 7208-ci hədislərdə və əl-Həkim 3\46-cı səhifədə rəvayət etmiş və sonuncu, bu hədisin İmam Müslimin şərtlərinə müvafiq olduğunu demişdir.
2 "Müsnəd Əhməd" 22172-ci, "Sünən Əbu Davud" 1522-ci, "Sünən Nəsəi" 9937-ci, ibn Hibban 2020-ci hədislərdə və əl-Həkim 1\407-ci səhifədə hədisi rəvayət etmişlər və

Bu müraciətlə özündən balacaya **“Ey uşaq!”** və ya **“Ey cahil!”** deyərək müraciət etmək arasında fərq var. Sən kobud ifadələrlə qəlbləri bağlayır və insanları özündən uzaqlaşdırırsan.

Beləcə kim özünün xeyrə açar olmasını istəyirsə, ən gözəl və ən dəyərli əxlaqla bəzənsin. Allahın Elçisi belə (ona Allahın salavatı və salamı olsun) demişdir: *“Mən gözəl əxlaqları tamamlamaq üçün göndərildim”*[1].

---

sonuncu, bu hədisin Buxari və Müslimin şərtlərinə müvafiq olduğunu demişdir. Hədis səhihdir. Bax: “Səhih əl-Cəmi” 7969-cu hədis.

1 “Müsnəd Əhməd” 8952-ci, “Ədəb əl-Mufrad lil-Buxari” 273-cü hədislərdə və əl-Həkim 3\613-cü səhifədə Əbu Hureyranın hədisində rəvayət etmişlər. Hədis Səhihdir. Bax: “Silsilə əs-Səhihə” 45-ci hədis.

# DOQQUZUNCU
# XEYRƏ TƏLƏSMƏK

Qulun insanlar üçün xeyrə açar olması, yalnız özünün xeyir əmələ əhəmiyyət verməsi, ona əməl etməsi və xeyir əmələ tələsməsi ilə tamamlanar. Şueyb Peyğəmbərin öz qövmünə dediyi sözə nəzər sal:

﴿ وَمَآ أُرِيدُ أَنۡ أُخَالِفَكُمۡ إِلَىٰ مَآ أَنۡهَىٰكُمۡ عَنۡهُۚ ﴾

*“Sizə qadağan etdiyim şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm”*[1].

Beləcə insanları xeyrə dəvət edən kimsənin özünün xeyir əmələ tələsən kimsələrdən olması gərəkir. Uca Allah belə deyir:

﴿ لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا ﴾

*“Allahın Elçisində sizlərə, Allaha və axirət gününə ümüd bəsləyənlərə və Allahı çox zikr edənlərə gözəl örnəklər vardır”*[2].

İnsan dili ilə xeyrə çağıran, xeyir əməldə isə səhlənkar və zay edən kimsə olmalı deyil, əksinə, onun əməllərilə örnək olmalıdır. Bu məqamda məsələnin nə qədər təhlükəli olması məlum olur: bir insan dili ilə insanları xeyrə, əməlləri isə onları şərə çağırır.

İbn əl-Qayyim (Allah ona rəhmət etsin) belə söyləmişdir: *“Pis alimlər Cənnətin qapısı üzərində oturub insanları öz sözləri ilə Cənnətə, əməlləri ilə isə oda çağırırlar. Hər dəfə onların sözləri insanlara “tələsin”*

1 “Hud”, 88.
2 “əl-Əhzab”, 21.

*dedikdə, əməlləri, "ona qulaq asmayın" deyərlər. Onların çağırdıqları haqq olsa idi, öz çağırışlarına ilk icabət edən kimsələr olardılar. Onlar - yəni pis alimlər - hər iki surətlərində bələdçidirlər. Yəni insanları Cənnətə çağırır və bələdçilik edirlər, həqiqətdə isə onlar Cənnətə gedən yolu kəsənlərdir"*[1].

1 "əl-Fəvəid", 85-ci səhifə.

# ONUNCU
# AXİRƏTİ VƏ ALLAHIN QARŞISINDA DURMAĞI XATIRLAMAQ

**İnsanın xeyrə səbəb olmasına yardım edən amillərdən:** Axirət diyarı, Allahın qarşısında durmaq, insanların etdikləri əməllərə görə mükafatlandırılmaları, Qiyamət günü Allahla görüşdükdə dediyin hər bir söz və etdiyin hər bir əməli qarşında hazır görəcəyin barədə düşünməkdir.

Cənnətin yeddi qapısı və Cəhənnəmin yeddi qapısı olduğu barədə düşün. Uca Allah “əz-Zumər” surəsinin son ayələrindən birində belə deyir:

﴿وَسِيقَ ٱلَّذِينَ كَفَرُوٓاْ إِلَىٰ جَهَنَّمَ زُمَرًاۖ حَتَّىٰٓ إِذَا جَآءُوهَا فُتِحَتۡ أَبۡوَٰبُهَا وَقَالَ لَهُمۡ خَزَنَتُهَآ أَلَمۡ يَأۡتِكُمۡ
رُسُلٞ مِّنكُمۡ يَتۡلُونَ عَلَيۡكُمۡ ءَايَٰتِ رَبِّكُمۡ وَيُنذِرُونَكُمۡ لِقَآءَ يَوۡمِكُمۡ هَٰذَاۚ قَالُواْ بَلَىٰ وَلَٰكِنۡ حَقَّتۡ كَلِمَةُ
ٱلۡعَذَابِ عَلَى ٱلۡكَٰفِرِينَ ٧١ قِيلَ ٱدۡخُلُوٓاْ أَبۡوَٰبَ جَهَنَّمَ خَٰلِدِينَ فِيهَاۖ فَبِئۡسَ مَثۡوَى ٱلۡمُتَكَبِّرِينَ ٧٢ وَسِيقَ
ٱلَّذِينَ ٱتَّقَوۡاْ رَبَّهُمۡ إِلَى ٱلۡجَنَّةِ زُمَرًاۖ حَتَّىٰٓ إِذَا جَآءُوهَا وَفُتِحَتۡ أَبۡوَٰبُهَا وَقَالَ لَهُمۡ خَزَنَتُهَا سَلَٰمٌ عَلَيۡكُمۡ
طِبۡتُمۡ فَٱدۡخُلُوهَا خَٰلِدِينَ ٧٣ وَقَالُواْ ٱلۡحَمۡدُ لِلَّهِ ٱلَّذِي صَدَقَنَا وَعۡدَهُۥ وَأَوۡرَثَنَا ٱلۡأَرۡضَ نَتَبَوَّأُ
مِنَ ٱلۡجَنَّةِ حَيۡثُ نَشَآءُۖ فَنِعۡمَ أَجۡرُ ٱلۡعَٰمِلِينَ ٧٤﴾

*“Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: “Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?” Onlar: “Əlbəttə, gəlmişdi!" - deyəcəklər. Lakin əzab sözü kafirlər barəsində gerçəkləşdi. Onlara: “İçində əbədi qalacağınız Cəhənnəmin qapılarına*

*girin!” - deyiləcək. Təkəbbürlülərin yeri necə də pisdir! Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: “Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!”. Onlar deyəcəklər: “Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!”*[1].

Cənnətin qapıları və bu qapıların açarları var. Cəhənnəmin qapıları və bu qapıların açarları var. Cənnətin və Cəhənnəmin açarları dünyadadır, Axirətdə deyil. Axirətdə isə yalnız və yalnız hesab və mükafat olacaq. Dünya isə bu açarların olduğu yerdir. Cənnətin açarı tövhid, namaz, oruc, Allaha itaət etmək, Onun əmrlərinə tabe olmaqdır. Cəhənnəmin açarları isə Allaha şərik qoşmaq və küfr etməkdir. Çünki kim bu günahlar üzərində ölərsə, ona Cəhənnəmin qapıları açılar və o orada əbədi qalar. Əgər qulun (şirkdən aşağı olan) günahları və asilikləri olar və o, bu günahlar səbəbi ilə Cəhənnəmə daxil olarsa, ona günahlarının miqdarı qədər əzab olunar. Cəhənnəmdə əbədi qalacaq olan isə yalnız müşriklərdir.

Buxari və Müslim “Səhih” hədis toplularında Əbu Hureyranın (Allah ondan razı olsun) Peğəmbərdən (ona Allahın salavatı və salamı olsun) belə dediyi rəvayət edirlər: *“Kim bir növdən olan iki cür malını Allah yolunda xərcləyərsə, qiyamət günü Cənnətin qapılarından çağırılar: “Ey Allahın qulu! Bu xeyrdir. Kim namaz qılan olarsa, namaz qapısından, kim oruc tutan olarsa, Rəyyan qapısından, kim Allah yolunda vuruşan olarsa, cihad qapısından və kim də sədəqə verən olarsa, sədəqə qapısından çağırılar”.*

Əbu Bəkr (Allah ondan razı olsun) belə dedi: *“Ey Allahın Elçisi! Bir kimsənin bu qapıların hər birindən çağırılmasında zərurət yoxdur (çünki*

1 “əz-Zumər”, 71-74.

*sadəcə bir qapıdan çağırılarsa, artıq məqsədə çatmış olur). Bəs elə bir kimsə olacaqmı ki, bu qapıların hər birindən çağırılsın?*

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun): *"Bəli, ümid edirəm ki, sən onlardansan"* - dedi[1].

Qul namaz, oruc, sədəqə və digər ibadətlərini və itaətlərini qorumalıdır - bütün bunlar Cənnətin açarlarıdır. Həmçinin insanları xeyrə çağırmalıdır: *"Xeyrə yol göstərən, onu edən kimidir"*. Bu böyük fəzilətdir; bir kimsəni itaətə çağırırsan, o da bunu icra edir və sənə onun savabı qədər savab yazılır, Nəim cənnətlərində dərəcən artır və beləcə sən insanları xeyrə çağırmaqla xeyrə açar olursan. Buna görə də bu məsələ, yəni, Cənnət, Cəhənnəm və Allahın qarşısında durmaq barədə düşünməyin, bu böyük mövzuda mühüm olan işlərdəndir.

1 "Səhih Buxari" 1897-ci, "Səhih Müslim" 1027-ci hədislər.

# ON BİRİNCİ
# XEYRLİ KİMSƏLƏRLƏ YOLDAŞLIQ ETMƏK VƏ SALEHLƏRLƏ BİRGƏ OLMAQ

**Xeyrli kimsələrlə yoldaşlıq etmək və salehlərlə birgə olmaq:** Buxari və Müslim "Səhih" hədis əsərlərində Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə söylədiyini rəvayət edir: *"Yaxşı və pis dostun misalı, ətir satanla körük vuranın misalına bənzəyir. Ətir satan ya sənə gözəl ətir hədiyyə edəcək, ya sən həmin ətri satın alacaqsan, ya da ondan gələn xoş qoxunu iyləyəcəksən. Dəmirçinin yanında olduqda isə, ya dəmiri körüklədiyi zaman paltarını yandıracaq, ya da sən ondan gələn pis iyini duyacaqsan"*[1].

Kim xeyrə açar olmaq istəyirsə, xeyir, fəzilət və itaət əhli ilə birgə olmaqda özünü səbirli aparsın. Uca Allah belə buyurur:

﴿وَٱصۡبِرۡ نَفۡسَكَ مَعَ ٱلَّذِينَ يَدۡعُونَ رَبَّهُم بِٱلۡغَدَوٰةِ وَٱلۡعَشِيِّ يُرِيدُونَ وَجۡهَهُۥۖ وَلَا تَعۡدُ عَيۡنَاكَ عَنۡهُمۡ تُرِيدُ
زِينَةَ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَاۖ وَلَا تُطِعۡ مَنۡ أَغۡفَلۡنَا قَلۡبَهُۥ عَن ذِكۡرِنَا وَٱتَّبَعَ هَوَىٰهُ وَكَانَ أَمۡرُهُۥ فُرُطٗا﴾

*"Səhər və axşam çağı Rəbbinin üzünü diləyərək ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bər-bəzəyini istəyərək nəzərlərini onlardan çevirmə. Qəlbini bizim barəmizdə qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə"*[2].

İnsan şərli insanlarla dostluq etməkdən uzaq durmalı və çəkinməlidir. Qiyamət günü o, buna görə peşman olacaq, amma bu peşmançılığı ona fayda verməyəcək. Uca Allah belə buyurur:

---

1 "Səhih Buxari" 5534- cü, "Səhih Müslim" 2628-ci hədislər.
2 "əl-Kəhf", 28.

﴿ وَيَوْمَ يَعَضُّ ٱلظَّالِمُ عَلَىٰ يَدَيْهِ يَقُولُ يَٰلَيْتَنِي ٱتَّخَذْتُ مَعَ ٱلرَّسُولِ سَبِيلًا ٢٧ يَٰوَيْلَتَىٰ لَيْتَنِي لَمْ أَتَّخِذْ
فُلَانًا خَلِيلًا ٢٨ لَّقَدْ أَضَلَّنِي عَنِ ٱلذِّكْرِ بَعْدَ إِذْ جَآءَنِيۗ وَكَانَ ٱلشَّيْطَٰنُ لِلْإِنسَٰنِ خَذُولًا ٢٩ ﴾

*“Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: “Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost omayaydım! Çünki, zikr mənə çatdıqdan sonra o məni bu zikrdən uzaqlaşdırdı”. Həqiqətən şeytan insanı tənha qoyub qaçandır”*[1].

1 “əl-Furqan”, 27-29.

# ON İKİNCİ XEYRİN YAYILMASINA HƏRİS OLMAQ

Allahın qullarına nəsihət etmək, onlarla ünsiyyətdə və onlarla birgə ikən onları xeyrlə məşğul edib şərdən çəkindirməkdir. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *"Din nəsihətdir! Din nəsihətdir! Din nəsihətdir"*[1].

İnsan, olduğu hər bir məclisdə xeyri yaymağa həris olmadıqca xeyrə açar ola bilməz. Buna görə də İbn əl-Qayyim (Allah ona rəhmət etsin) Allahın:

﴿ وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ ﴾

*"Harada oluramsa olum məni mübarək etdi"*[2] - ayəsinin açıqlamasında belə demişdir: *"Yəni xeyri öyrədən, Allaha çağıran, Allahı xatırladan və Ona itaətə həvəsləndirən (etdi məni), elə bu da insanın bərəkətidir. Kimdə bu olmazsa, onda bərəkət də olmaz, onunla görüşməyin və onunla birgə olmağın bərəkəti ondan alınar"*[3]. Əvvəldə keçən hədisdə Allah Elçisinin (ona Allahın salavatı və salamı olsun) belə dediyi qeyd olunmuşdu: *"Sizin ən xeyrliniz, xeyrinə ümid olunub şərindən əmin olunan kimsədir"*.

1 "Səhih Müslim" 55-ci hədis.
2 "Məryəm", 31.
3 İbn əl-Qayyimin qardaşlarından birinə yazdığı məktubdan, səh. 5.

# ON ÜÇÜNCÜ
# XEYİR QAPILARI ARDICILDIR

**Həqiqətən xeyir qapıları ardıcıldır;** kimə xeyir qapısı açılarsa, ardınca ona başqa xeyir qapıları açılar, bu isə Allahın nemətidir. Elm sahibləri belə deyirlər: "Həqiqətən yaxşı əməl öz bacısını (özü kimi digər yaxşı əməli) çağırar". Əgər sənin köksün xeyir qapılarından hər hansısa bir qapıya açılıb və bu xeyir sənə tərəf yönəlibsə, bu Allahın sənə olan bir nemətidir. Çünki yaxşı əməl öz bacısını çağırar. Uca Allah belə deyir:

﴿ هَلۡ جَزَآءُ ٱلۡإِحۡسَٰنِ إِلَّا ٱلۡإِحۡسَٰنُ ﴾

*"Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?"*[1].

Əgər sən nəfsinin xeyir qapılarından bir qapıya üz tutduğunu və onun üçün səy etdiyini görsən, səninlə bu xeyir qapısının arasına bir maneə daxil olmadan oradan qənimətini topla. Şübhəsiz ki, cüzi bir əməl olsa belə sən xeyir qapısına daxil olsan, bu az və yüngül xeyir qapısı sənə digər qapıları açacaq. Yaxşı əməl yaxşı əməli, pis əməl isə pis əməli gətirər, bundan Allaha sığınırıq! Uca Allah belə deyir:

﴿ ثُمَّ كَانَ عَٰقِبَةَ ٱلَّذِينَ أَسَٰٓـُٔواْ ٱلسُّوٓأَىٰٓ أَن كَذَّبُواْ بِـَٔايَٰتِ ٱللَّهِ وَكَانُواْ بِهَا يَسۡتَهۡزِءُونَ ﴾

*"Sonra Allahın ayələrini yalan sayıb onlara istehza etməklə pislik edənlərin aqibəti elə pislik oldu"*[2].

1 "ər-Rəhman", 60.
2 "ər-Rum", 10.

## XEYRƏ NECƏ AÇAR OLA BİLƏRSƏN?

Bu mövzuda varid olan hədislərdən birində Əbu Hureyra (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edir: *"Kişinin sədəqə verməklə və ya qohumluq əlaqələrini birləşdirməklə əta edərək açdığı elə bir qapı yoxdur ki, Allah onun səbəbi ilə həmin kəsə (fəzilətindən) artırmasın"*[1].

Buna görə insana gərəkən odur ki, nəfsinin üz tutduğu və səy göstərdiyi vaxt xeyir qapısından öz qənimətini götürsün. Nəfs irəliləyir və geriləyir. Odur ki, əgər sən xeyir qapılarından bir qapıya üz tutsan, ona daxil ol, hətta bu, yüngül əməl olsa belə. Çünki bu yüngül və az olan xeyir səni digər xeyrlərə aparıb çıxaracaq. Beləcə sən xeyrin qapılarında və xeyrin mənzillərində addım-addım yüksələcəksən.

Nəfsini qətiyyən xeyrdən məhrum etmə, hətta bu xeyir az olsa belə. Çünki səninlə bu xeyrin arasına maneə girə bilər. Allah qul ilə onun qəlbi arasındadır (O, insanın öz istəyinə çatmasına mane ola bilər, Allah qəlbləri istədiyi kimi və istədiyi vaxt döndərir). Sən az olan xeyrdən öz qənimətini topla və bu səni çoxlu xeyrlərə gətirəcək.

1 "Müsnəd Əhməd" 9624-cü və "Şuəb əl-İmən lil Beyhəqi" 3140-cı hədislər. Hədis səhihdir. Bax: "Silsilə əs-Səhihə" 2231-ci hədis.

# ON DÖRDÜNCÜ DİGƏRLƏRİNƏ AÇILAN XEYİR QAPILARINI AŞAĞI GÖRMƏ

Kimin üçün xeyir qapısı açılıbsa, qoy o, digər kimsələr üçün açılan başqa xeyir qapılarını aşağı görməsin. Sənə xeyir qapısı açılıbsa, məsələn, sən namaz qılmağa, nafilə oruca və yaxud da digər yaxşı və xeyir əməllərə müvəffəq olmusansa, səndən başqa kimsələr üçün açılan xeyir əməlləri aşağı görmə. Sənə oruc, başqa bir kimsəyə isə gözəl əməllərlə İslama xidmət etmək qapısı açıla bilər. Ola bilər sən bu kimsənin əməllərinin öz namazın, orucun və sədəqən yanında heç nə olduğunu düşünərsən, amma ola bilsin ki, onun etdiyi əməllər Allah yanında daha böyük və daha ucadır.

Xülasə, kimin üçün xeyir qapısı açılıbsa, o, digər kimsələrin xeyir qapılarını aşağı görməsin, alçaltmasın. Sən də, o da xeyir üzərindəsiniz, digər kimsələrin xeyir qapılarını aşağı görmə və alçaltma.

Bəzi kimsələr - və bu bizim əksəriyyətimizdə olan problemdir - məsələn, oruc, gecə namazı kimi hər hansısa bir itaətə müvəffəq olduqda, başqa birinin bunu etmədiyini görür, onu alçaldır və aşağı görür. Bəlkə də bu kimsənin özü ilə Allah arasında olduqca üstün əməlləri vardır ki, bu əməllər faydası yalnız özünə olan kimsənin itaətlərindən daha əzəmətlidir. Elə itaətlər var ki, o itaəti edəndən başqası da ondan faydalanır və elə itaətlər də var ki, onların faydası yalnız insanın özünədir. Buna görə də insana gərəkən, xeyir əməllərdən heç birini aşağı görməməsidir.

Bu mövzuda rəvayət olunan xoş və gülməli bir əhvalat var. İmam Maliklə (Allah ona rəhmət etsin) ibadətlə məşğul olan bir abid arasında baş verən gözəl bir hekayədir. Bu hekayəni İbn AbdulBərr "ət-Təmhid"

əsərində və İmam əz-Zəhəbi də ondan "Siyər əaləmu-nubələ" kitabında rəvayət etmişlər: "Abid kimsə olan Abdullah bin AbdulƏziz əl-Umari İmam Malikə məktub yazır və ona təkliyə çəkilməyi, əməl etməyi və bu əməllərə elm məclislərinə toplanmaqdan daha çox rəğbət göstərməyi tövsiyyə edir. İmam Malik (Allah ona rəhmət etsin) ona (cavab) məktubu yazır:

*"Həqiqətən Uca Allah ruzini böldüyü kimi, əmələri də bölmüşdür. Ola bilər bir adam üçün namazda açılan xeyir qapısı orucda açılmasın, digəri üçün sədəqədə açılan xeyir qapısı orucda açılmasın və digəri üçün Allah yolunda vuruşmaq qapısı açılan xeyir qapısı namazda açılmasın. Elmi yaymaq və onu öyrətmək ən fəzilətli əməllərdəndir. Mən Allahın mənim üçün açdığı bu xeyir qapısından razıyam, etdiyim bu əməlin sənin etdiyin əməldən aşağı olduğunu da güman etmirəm. Ümid edirəm ki, hər birimiz xeyir üzərindəyik, hər birimizə isə onun üçün bölünəndən razı olması vacibdir, və salam olsun".*

Alimin (Allah ona rəhmət etsin) sözünə nəzər sal: *"Ümid edirəm ki, hər birimiz xeyir üzərindəyik"*. O, **"Sən heç nə anlamırsan, məndə olan elm səndə yoxdur, sənin əməlin daha aşağıdır"** demədi. Əksinə, ona gözəl və təvəzökar sözlər dedi və məktubunu bu cümlə ilə tamaladı: *"Ümüd edirəm ki, hər birimiz xeyir üzərindəyik"*. Mən də xeyir üzərindəyəm, sən də xeyir üzərindəsən, lakin etdiyim xeyir əməlin mənə görə daha uca olduğunu güman edirəm, çünki bu əməlin faydası digər insanlara da çatır. Abidin etdiyi əməllərin faydası isə yalnız özünədir. Buna görə də Əbu əd-Dərda (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) belə dediyini rəvayət edir: *"Alimin abid üzərində olan fəziləti (üstünlüyü), bədirlənmiş gecədə ayın ulduzlar üzərində olan fəziləti kimidir"*[1].

1 "Müsnəd Əhməd" 21763-cü, "Sünən əbu Davud" 3641- ci, "Sünən ət-Tirmizi" 2682-ci, "Sünən ibn Macə" 223-cü və ibn Hibban 88-ci hədislər. Hədis səhihdir. Bax: "Səhih əl-Cəmi" 6297-ci hədis.

# ON BEŞİNCİ
# NƏFSİ MÜALİCƏ ETMƏK

Nəfsin müalicəsi olduqca əzəmətli bir işdir. Kim xeyrə açar olmaq istəyirsə, özünü qəlb xəstəlikərindən müalicə etməyə çalışmalıdır.

Qəlb xəstəlikləri insan üçün çox təhlükəli və çox zərərlidir. Məsələn, həsəd, kin-küdurət, köksdə gizlədilən düşmənçilik və qəlblərdə gizlənən və onları bütövlüklə bürüyən xəstəliklər.

Kim xeyrə açar olmaq istəyirsə, Allahın köməyi ilə, Ondan yardım istəməklə nəfsinin müalicəsinə çalışsın və qəlb xəstəliklərini özündən uzaq etsin.

Peyğəmbərimizdən (ona Allahın salavatı və salamı olsun) bu mənaya dəlalət edən əzəmətli dualar varid olmuşdur. Bu dualardan; O, (ona Allahın salavatı və salamı olsun) mübarək və əzəmətli duasının sonunu belə tamamlayardı: *“Köksümdən kin-küdurəti çıxar”*[1].

Əgər qəlbdə çirkab əməllər, kin-küdurət, köksdə gizlədilən düşmənçilik olarsa, bu qəlbin sahibi başqaları üçün necə xeyrə açar ola bilər? Şər əməllər yer alan, şər əməllər gizlədilən, kin və düşmənçilik olan bir qəlb başqaları üçün xeyir qapılarına necə açar ola bilər?! Buna görə də, ola bilsin ki, qəlbi düşmənçiliklə dolu olan bir həsədçi zahirdə digərlərinə xeyir verən bir kimsə və digərlərinə xeyir qapılarının açarı kimi görünsə də, həqiqətdə o, fəsadçıdır.

Buna nümunə olaraq: həsədin banisi iblis, atamız Adəmə həsəd etdiyi zaman nə etdi? Onun yanına “etibarlı bir nəsihətçi” surətində gəldi, onu

1 “Müsnəd Əhməd” 1997-ci, “Sünən əbu Dəvud” 1510-cu, “Sünən ət-Tirmizi” 3551-ci, “Sünən ibn Macə” 3830-cu, “Səhih ibn Hibban” 947-ci hədislər. İmam ət-Tirmizi hədisin “həsən səhih” olduğunu demişdir. Hədis səhihdir. Bax: “Səhih əbu Davud” 1353-cü hədis.

aldatmağa başladı və ona elə şeylər dedi ki, özünün həqiqətən nəsihətçi olduğunu ona hiss etdirsin.

Uca Allah Qurani Kərimdə belə deyir:

﴿فَوَسۡوَسَ لَهُمَا ٱلشَّيۡطَٰنُ لِيُبۡدِيَ لَهُمَا مَا وُۥرِيَ عَنۡهُمَا مِن سَوۡءَٰتِهِمَا وَقَالَ مَا نَهَىٰكُمَا رَبُّكُمَا عَنۡ هَٰذِهِ ٱلشَّجَرَةِ
إِلَّآ أَن تَكُونَا مَلَكَيۡنِ أَوۡ تَكُونَا مِنَ ٱلۡخَٰلِدِينَ ٢٠ وَقَاسَمَهُمَآ إِنِّي لَكُمَا لَمِنَ ٱلنَّٰصِحِينَ ٢١ فَدَلَّىٰهُمَا بِغُرُورٖۚ ٢٢﴾

*“Şeytan onların bir-birindən gizli qalan ayıb yerlərini özlərinə göstərmək üçün onlara pıçıldayıb dedi: “Rəbbiniz bu ağacı yalnız ona görə qadağan etmişdir ki, siz mələk və ya Cənnətdə əbədi qalanlardan olmayasınız. (Bundan sonrada onlara) Şübhəsiz ki, mən sizin nəsihətçilərinizdənəm” - deyə and içdi. Beləliklə, şeytan onları tovladı”*[1].

Beləcə, kimin qəlbində şər əməllər və ya kin-küdurət və yaxud da digər xəbis əməllər yer tutarsa, o kimsə xeyrə açar ola bilməz, əksinə belə kimsə şərə açar olacaq. Buna görə də, qəlbin daim, davamlı olaraq müalicə edilməsi lazımdır. Bununla yanaşı, daim Allahdan qəlbləri çirkab əməllərdən uzaq tutmasını və bu cür əməllərdən təmizləməsini istəmək gərəkir. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) duasında belə deyirdi: *“Allahım, nəfsimi Allahdan qorxan et, sən nəfsimi təmizlə, həqiqətən də Sən onu ən xeyrli təmizləyənsən, Sən nəfsimin Vəlisi və Mövlasısan”*[2].

---

1 “əl-Əraf”, 20-22.

2 Hədisi İmam Müslim özünün “əs-Səhih” kitabında Zeyd bin Ərqamın (Allah ondan razı olsun) rəvayəti ilə 2722-ci rəqəmli hədis olaraq qeyd etmişdir.

# ON ALTINCI
# QULUN XEYRƏ VƏ İNSANLARA FAYDA VERMƏYƏ RƏĞBƏT ETMƏSİ

Əvvəl də qeyd edilənlərin nəticəsi və onların hamısını özündə cəm edən, qulun xeyrə və insanlara fayda verməyə rəğbət etməsi və buna həris olmasıdır. Rəğbət hasil olar, niyyət qərarlı, əzmkarlıq qətiyyətli olar və qul Allahdan kömək diləyərək hər bir işə öz qapısından gələrsə, Allahın izniləo, xeyrə açar və şərə qıfıl olar.

Sonda isə Uca Allaha Onun bütün Adları və Sifətləri ilə üz tuturam. Həqiqətən O, xeyir qapılarını Açan və hər şeyi Biləndir, çünki O, xeyir qapılarını açanların ən xeyrlisidir. Uca Allahdan mənə, valideyinlərimə, şeyxlərimə və bütün müsəlmanlara Özünün geniş fəziləti, əzəmətli ehsanı və böyük ətası ilə bizə xeyir qapılarını açmasını istəyirəm. Uca Allahdan bizim hamımızı xeyrə açar və şərə qıfıl olanlardan etməsini, bizi, bizim üçün və bizimlə insanları doğru yola hidayət etməsini və bizə hidayət yolunu asanlaşdırmasını istəyirəm.

Dualarımızın sonu isə, aləmlərin Rəbbi olan Allaha həmd olsun, Peyğəmbərimizə Allahın salavatı və salamı olsun. Allahım, Peyğəmbərimizə, onun Əhli-Beytinə və bütün səhabələrinə bərəkət və nemət bəxş et!

# MÜNDƏRİCAT

Ön söz ....................................................................................................3
Allah xeyrə qapı açanların ən xeyrlisidir ....................................................6
Allahı təkləşdirmək və dini yalnız Allaha xas etmək.......................................9
Faydalı elm...........................................................................................13
İslam dininin fərz və vaciblərinin qeydinə qalmaq.......................................17
Günahlardan uzaq durmağa çalışmaq ..........................................................20
Dua etmək ............................................................................................22
Fitnə və şübhə yerlərindən çəkinib uzaq durmaq .........................................26
Hər bir işdə şəfqətli olmaq və insanlarla ən gözəl əxlaqla müamilə etmək .....27
Xeyrə tələsmək ....................................................................................30
Axirəti və Allahın qarşısında duqmağı xatırlamaq .......................................32
Xeyrli kimsələrlə yoldaşlıq etmək və salehlərlə birgə olmaq .........................35
Xeyrin yayılmasına həris olmaq ..................................................................37
Xeyir qapıları ardıcıldır ...........................................................................38
Digərlərinə açılan xeyir qapılarını aşağı görmə.............................................40
Nəfsi müalicə etmək .................................................................................42
Qulun xeyrə və insanlara fayda verməyə rəğbət etməsi .................................44